İnsan hüquqları aylığı uğurla həyata keçirilmişdir

Ölkəmiz müstəqilliyini ikinci dəfə bərpa etdiyi dövrdə, 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra respublikamızda silsilə, hərtərəfli ictimai-siyasi, iqtisadi-sosial və hüquqi islahatlar həyata keçirilmişdir.

1995-ci ilin 12 noyabr tarixində ümumxalq səsverməsi (referendum) yolu ilə müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul edilməsi ilə ölkəmizdə aparılan hüquqi islahatların özülü qoyulmuşdur.

Prezident Heydər Əliyev tərəfindən 1998-ci ilin 18 iyun tarixində təsdiq edilmiş və ölkəmizdə insan hüquqları sahəsində ilk strateji sənəd olan "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nda ilk dəfə "İnsan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının yaradılması" təsbit olunmuşdur.

Milli səviyyədə insan hüquqlarının təşviqi və müdafiəsi məqsədilə məhkəmədənkənar müstəqil hüquq müdafiə mexanizmi və milli insan hüquqları institutu kimi səmərəli fəaliyyət göstərən Ombudsman təsisatının hüquqi statusu və müstəqilliyinin təminatları ilə bağlı müddəalar "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" 2001-ci il 28 dekabr tarixli Konstitusiya Qanununda öz təsbitini tapmışdır.

Azərbaycan Ombudsmanı Konstitusiya Qanununa uyğun olaraq, ölkə yurisdiksiyasında olan hər bir kəsin pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi, habelə insan hüquqları pozuntularının qarşısının alınması, "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını həyata keçirməsi, "İnformasiya əldə etmək haqqında" Qanunun tələblərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə dəstək verməsi istiqamətində tədbirlər görür.

Bu gün də ümummilli liderimizin siyasi kursunun möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam və daha da inkişaf etdirilməsi Azərbaycanın bir çox parametrlər üzrə sürətlə inkişaf edən ölkəyə çevrilməsi ilə nəticələnmişdir.

Dövlət başçısının 18 iyun 2007-ci il tarixli Sərəncamına əsasən ölkəmizdə ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın qəbul olunduğu günün, 18 iyun tarixinin - Azərbaycan Respublikasında Milli İnsan Hüquqları Günü kimi təsis edilməsi və geniş şəkildə qeyd olunması ilə əlaqədar Ombudsmanın təşəbbüsü ilə ənənəvi olaraq hər il 18 iyun - İnsan Hüquqları Günü ərəfəsində mayın 18-dən respublikamızda "İnsan hüquqları aylığı" keçirilir. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, eyni zamanda vətəndaş cəmiyyəti institutlarına, o cümlədən də QHT və KİV-lərə, icmalara, ümumilikdə isə hər kəsə bu günlərdə tədbirlərin həyata keçirilməsi, insan hüquqlarına diqqətin bir qədər də artırılması, bu hüquqların təmini və təbliği məqsədini daşıyan çağırış edilmiş, aylıqla bağlı əhalini məlumatlandırmaq üçün iki ədəd baner hazırlanaraq paytaxtın mərkəzi küçələrində asılmışdır.

"İnsan hüquqları aylığı" çərçivəsində Müvəkkilin, Aparatın əməkdaşlarının, Gəncə, Şəki, Quba və Cəlilabadda yerləşən və ətraf rayonları əhatə edən Ombudsmanın regional mərkəzlərinin nümayəndələri tərəfindən Bakı şəhərində və respublikanın rayonlarında silsilə tədbirlər davam etdirilmiş, Müvəkkilin nümayəndələri yerlərdə təşkil olunmuş tədbirlərdə insan hüquqlarına dair müxtəlif mövzularda məruzə və çıxışlar etmişlər.

Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının müddəalarına uyğun olaraq, Ombudsmanın təşəbbüsü əsasında Təhsil Nazirliyi ilə əməkdaşlıqda orta ümumtəhsil məktəblərində insan hüquqları təhsili bazasında həyata keçirilən Uşaq hüquqları üzrə pilləli tədris proqramının tətbiqi uğurla davam etdirilir. 2017-2018-ci tədris ilində Bakı şəhərinin hər bir rayonu və Balakən, Qax, Şəmkir, Samux, Şabran, Xaçmaz, Salyan və Neftçala rayonları üzrə hər birində bir məktəb olmaqla, ümumilikdə 20 məktəbdə həyata keçirilən Uşaq hüquqları üzrə pilləli tədris proqramına yekun vurulmuşdur.

Ümumilikdə 2009-2010-cu tədris ilindən etibarən hər il keçirilən Uşaq hüquqları üzrə pilləli tədris proqramına Bakı şəhərinin 12, ölkənin digər 32 şəhər və rayonunun 170-dən çox məktəbi cəlb edilmiş, bu prosesdə fərqlənmiş 10 mindən artıq şagird Ombudsman tərəfindən sertifikatla təltif edilmiş, 800-dən çox müəllim və direktor təşəkkürnamə almışdır.

1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günündə Müvəkkil Penitensiar Xidmətin Tərbiyə müəssisəsinə baş çəkərək burada saxlanılan yetkinlik yaşına çatmayan şəxslərlə görüş keçirmiş, onlara islah olunmalarını, qanun pozuntularına bir daha yol verməməyi, müəssisənin daxili intizam qaydalarına riayət etməyi, ailələrinə, sağlam həyat tərzinə qayıtmağı, təhsil almağı və peşələrə yiyələnməyi, faydalı əməklə məşğul olmağı, vətənə layiq, cəmiyyətə yararlı vətəndaşlar kimi formalaşmağı tövsiyə etmişdir.

Ombudsmanın uşaq hüquqları üzrə resurs mərkəzi olan, 15 ildən çox müddətdə müntəzəm fəaliyyət göstərən Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsinin (AUGSŞ) Liderlik Məktəbini ötən dövr ərzində 1700-dən çox məzun bitirmiş və artıq liderlik bacarıqlarından faydalanmaqla həyata qatılmışlar.

Azərbaycan Ombudsman təsisatı və AUGSŞ-nin üzvləri bu il də ENOC çərçivəsində Avropa Gənc Məsləhətçilər Şəbəkəsinin həyata keçirdiyi "Danışın gənclər - uşaqların mental sağlamlığı barədə danışın!" adlı layihəsinin iştirakçısıdır.

Yeri gəlmişkən, AUGSŞ tərəfindən 5 iyun - Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü münasibətilə Dövlət Neft Şirkətinin dəstəyi ilə bu qurumun nəzdində yaradılan, Qala qəsəbəsindəki Eko Park: Ekoloji Tədqiqatlar Mərkəzində uşaqların ekologiyanın qorunması, yurd sevgisi, zəngin təbii sərvətlərimizdən səmərəli istifadə edilməsi ruhunda tərbiyə olunmasına, onların ekoloji şüurunun formalaşmasına, həmçinin bioloji müxtəlifliyin mühafizəsinə yönəlmiş "Sağlam ətraf mühit naminə çalışaq" adlı maarifləndirmə tədbiri təşkil edilmişdir.

Yeganə dövlət olaraq, qısa müstəqillik dövründə ölkə Prezidenti tərəfindən 64 əfv sərəncamı imzalanmış, Milli Məclis isə 11 amnistiya aktı qəbul etmişdir ki, bu da on minlərlə insana şamil edilmişdir. Yalnız sonuncu, bu ilin mayında verilən Sərəncamla 634 məhkum, onlardan 72-si Ombudsmanın vəsatəti ilə əfv edilmişdir ki, ümumilikdə isə 638 məhkum, o cümlədən qadınlar, ahıllar, ağır xəstələr, yeniyetmələr əfv edilərək azadlığa buraxılmış, ailələrinə və cəmiyyətə qovuşmuşlar.

Ombudsman fəaliyyəti dövründə əhalinin həssas qruplarının ehtiyaclarının öyrənilməsini və hüquqlarının təmin olunmasını prioritet məsələ kimi daim diqqət mərkəzində saxlayır. O, valideyn himayəsindən məhrum, xüsusi qayğıya ehtiyacı olan, o cümlədən mental problemli, daun və autizm sindromlu uşaqlarla görüşür və problemləri ilə maraqlanır, təkliflər verir.

Müvəkkilin əhalinin bütün kateqoriyalarının hüquqlarının müdafiəsi ilə yanaşı, onların hüquqi biliklərə yiyələnməsinə, yeni gənc nəsil hüquqşünasların və insan hüquqları sahəsində kadrların hazırlanmasına yönəlmiş geniş hüquqi maarifləndirmə fəaliyyəti inkişaf etdirilir.

Ombudsmanın təşəbbüsü ilə Bakı Dövlət Universitetində yaradılmış "İnsan hüquqları və informasiya hüququ üzrə UNESCO" kafedrasında bakalavr və magistr pilləsində insan hüquqları üzrə yüksək ixtisaslı kadr hazırlığının bu sahədə elmi yanaşma nümayiş etdirilməklə uğurla davam etdirilməsi, "İnsan hüquqları", habelə "Genderə giriş" fənlərinin müstəqil bir fənn kimi universitet səviyyəsində tədrisi, "Genderə giriş" fənni üzrə mühazirələr toplusunun kitab şəklində nəşr etdirilməsi yeni nəsil hüquqşünaslar, sosial işçilər və ixtisaslaşmış psixoloqların hazırlanması işinə öz töhfəsini vermişdir.

Ölkə Ombudsmanı fəaliyyət müddətində Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya, habelə İslam Ölkələri Ombudsmanlar Assosiasiyalarına, Avropa MPM-lər Şəbəkəsinə, Avropa Milli İnsan Hüquqları Təsisatları Şəbəkəsinin MPM-lər qrupuna, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə üzv seçilmişdir.

Azərbaycan cəmiyyətində "insan hüquqları" anlayışına münasibətin müsbət baxımdan tamamilə yeniləşməsi, hüquqi tərbiyə və hüquq mədəniyyətinin yeni məzmunda formalaşması, insan hüquqlarının müdafiəsi sahəsində aidiyyəti dövlət qurumları ilə vətəndaş cəmiyyəti institutları arasında əlaqələndirilmiş iş üsulunun yaranması, vətəndaş fəallığı və təəssübkeşliyinin xeyli dərəcədə artması Ombudsman təsisatının cəmiyyətə gətirdiyi ən mühüm yeniliklərdən biridir.

İctimai həyatın müxtəlif sahələrində insan hüquqları amilinə mühüm töhfə verən ictimai iştirakçılığın, kütləviliyin təmin edilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, həm ayrı-ayrı əhali qrupları, həm də dövlət strukturları arasında hüquqi maarifləndirmə işinin aparılması və görülən tədbirlər daha səmərəli və layiqli idarəetmənin bərqərar olunması ölkədə həyata keçirilən uğurlu islahatlar nəticəsində mümkün olmuşdur. Bu baxımdan Ombudsmanın innovativ yanaşmaları da layiqli qiymətini almaqla formalaşdırılmış və uğurla həyata keçirilən ölkə modeli müsbət təcrübə kimi qəbul edilmişdir.

Hazırda dövlət nəzarəti ilə bərabər ictimai nəzarət mexanizminin də gücləndirilməsi dövlətimizin diqqət mərkəzində olan məsələlərdəndir. Heç də təsadüfi deyildir ki, ölkə Prezidenti öz çıxışlarında dəfələrlə ictimai nəzarətin əhəmiyyətini xüsusi qeyd etmişdir.

Aylıq çərçivəsində keçirilən tədbirlərin yekunu olaraq, müsəlman Şərqində ilk demokratik Parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə, ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə, BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 70 illiyinə və 18 iyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Gününə həsr olunmuş 2018-ci il 20-21 iyun tarixlərində Ombudsmanların XV Bakı Beynəlxalq konfransı da "Hüquq bərabərliyinin təmin olunmasında və təşviqində milli insan hüquqları təsisatlarının rolu" mövzusunda uğurla keçirilmiş və sonda Bakı Bəyannaməsi qəbul edilmişdir.

Həmin konfransda ölkəmizdə hüquq bərabərliyinin təmin olunması sahəsində həyata keçirilən islahatlarla yanaşı, hazırda 30 il davam edən Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunması, bir milyon nəfər dinc əhalinin ağır, kütləvi şəkildə insan hüquqları pozulmaqla qaçqın və məcburi köçkün həyatı yaşaması, bu hadisələrlə bağlı 125 bəyanatın qəbul olunaraq, BMT-nin Baş Katibinə və başqa nüfuzlu beynəlxalq təşkilatlara, xarici ölkə Ombudsmanlarına göndərilməsi, erməni işğalından 2016-cı ildə Cocuq Mərcanlının azad olunaraq yeni müasir yaşayış məskəninə çevrilməsi qonaqların diqqətinə çatdırılmışdır.

Azərbaycan Ombudsmanının xarici ölkə ombudsmanları ilə əməkdaşlıq zamanı yol xəritəsi kimi, BMT-nin 2030-cu ilədək Dayanıqlı İnkişaf Məqsədləri, həm də BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığının "İnsan hüquqlarının müdafiəsinə qalx" çağırışı, hüquq bərabərliyinin təmin olunması və bunun təşviq edilməsi, habelə hər bir örnək üçün prioritet olan insan hüquqlarının və hüquq bərabərliyinin pozulmasına ən böyük təhlükələr törədən müharibə və hərbi münaqişələr, ksenofobiya və islamofobiya ilə mübarizə yolları diqqət mərkəzində olmuşdur.

Ombudsmanların XV Bakı Beynəlxalq Konfransında əldə olunmuş dəyərli məlumatlar, faydalı təcrübə mübadiləsi Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin bu ilin 10 dekabr tarixində qeyd olunacaq 70 illiyinə həsr olunmuş "İnsan hüquqlarının müdafiəsinə qalx" çağırışı ilə həyata keçirilən ümumdünya kampaniyasına öz töhfəsini verəcək, milli insan hüquqları institutlarının əməkdaşlığının səmərəliliyinin artırılmasına və dünyada hüquq bərabərliyinin qorunmasına xidmət edəcəkdir.

Aylıq çərçivəsində aidiyyəti dövlət qurumları, o cümlədən hüquq-mühafizə orqanları, nazirliklər, komitələr tərəfindən həyata keçirilən tədbirlərin təhlilinə əsasən qeyd edə bilərik ki, bu tədbirlər əhalinin bütün qruplarını əhatə etmiş və onların fəal iştirakları ilə keçirilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunda yaradılmış "İnsan hüquqları və azadlıqlarının müdafiəsi sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu"nun üzvləri İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna dair dərc olunan son ədəbiyyatlarla təmin edilmiş, Baş Prokurorluğun kitabxana fondu müxtəlif növ ədəbiyyatlarla zənginləşdirilmişdir.

Ədliyyə Nazirliyi tərəfindən əhalinin müxtəlif qruplarını əhatə etməklə insan hüquqlarını təbliğ edən mövzularda bir sıra tədbirlər keçirilmiş, Ədliyyə naziri yanında fəaliyyət göstərən İctimai Komitənin üzvləri ilə birgə məhkumlarla qanunvericilikdə nəzərdə tutulmuş hüquq və azadlıqların təminatı mövzusunda hüquqi maarifləndirmə və hüquqi yardım işləri davam etdirilmişdir.

Daxili İşlər Nazirliyi tərəfindən aidiyyəti dövlət qurumlarının və QHT nümayəndələrinin iştirakı ilə yetkinlik yaşına çatmayanların cinayətə meylliklərinin fəsadları və onların məruz qaldıqları zorakılıqdan müdafiəsi, təhsildən qərəzli şəkildə yayınmaların qarşısının alınması ilə bağlı maarifləndirmə və izahat işləri aparılmış, Polis Akademiyasının təşkilatçılığı ilə "Narkomaniyaya yox deyək" mövzusunda maarifləndirici profilaktik tədbir keçirilmişdir.

Müdafiə Nazirliyi tərəfindən Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən tərbiyəvi iş və hüquq saatlarında Azərbaycan dövlətinin insan hüquqlarının və azadlıqlarının müdafiəsinə xüsusi önəm verməsi şəxsi heyətə çatdırılmışdır.

Dövlət Təhlükəsizliyi Xidmətinin struktur bölmələrində "Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin və təminatının əsas istiqamətləri" mövzusunda mühazirələr oxunaraq bu istiqamətdə əməkdaşlara və DTX-nın Heydər Əliyev adına Akademiyasında təhsil alan kursantlara geniş məlumatlar verilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən miqrasiya prosesi iştirakçılarının hüquq və vəzifələrinə, qanunsuz miqrasiyanın qarşısının alınması, Azərbaycan Respublikasında qeyri-müəyyən vəziyyətdə yaşayan, vətəndaşlığı olmayan şəxslərin hüquqlarının qorunması və vətəndaşlıq məsələlərinə həsr edilmiş tədbirlər keçirilmişdir.

Aylıq çərçivəsində həyata keçirilən tədbirlərin nəticələrinin təhlilinə əsasən, həmin dövr ərzində insan hüquqları ilə bağlı problemlər araşdırılaraq həll edilmiş, əhali arasında keçirilən geniş hüquqi maarifləndirmə kampaniyaları zamanı minlərlə iştirakçıya insan hüquqlarına dair milli qanunvericilik və beynəlxalq hüquqi aktlar, həmçinin dövlətdaxili və beynəlxalq hüquq müdafiə mexanizmləri barədə ətraflı məlumatlar verilmiş, bərabərlik və ayrı-seçkiliyin yolverilməzliyi təbliğ olunmuşdur. Təbii ki, bütün bunlar nəticə etibarı ilə cəmiyyətdə hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişafına öz töhfəsini vermişdir.

Həyata keçirilən bütün bu tədbirlər ölkəmizin tolerantlıq və multikulturalizm prinsiplərinə bağlılığının bariz nümunəsi olmaqla yanaşı, onun beynəlxalq nüfuzunun daha da möhkəmləndirilməsinə xidmət edəcəkdir. Bunun özülündə isə təbii ki, ölkəmizdə ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda, insan hüquqları sahəsində islahatlar nəticəsində Azərbaycanın bir çox göstəricilər üzrə sürətlə inkişaf edən öndər ölkəyə çevrilməsi faktı durur.

Belə ki, bu günlərdə BMT-nin İnsan hüquqları üzrə Ali Komissarının Azərbaycanın BMT-nin insan hüquqları üzrə xüsusi məruzəçiləri ilə açıq və fəal əməkdaşlıq edən 19 ölkədən biri olduğunu bəyan etməsi bunun bariz nümunəsidir.

15 ildən artıq bir dövr ərzində formalaşmış zəngin təcrübəyə əsasən inamla deyə bilərik ki, milli səviyyədə insan hüquqlarının təşviqi və müdafiəsi məqsədilə yaradılaraq, məhkəmədən kənar müstəqil hüquq müdafiə mexanizmi və milli insan hüquqları institutu kimi uğurla fəaliyyət göstərən Ombudsman təsisatı bundan sonra da ölkəmizdə hər bir kəsin insan hüquqlarının səmərəli müdafiəsinə xidmət etməklə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun yeni nailiyyətlərin əldə olunmasına öz töhfəsini verəcəkdir.

Faiq AĞAYEV,
Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının şöbə müdiri.